# THE REBELLION OF MUHAMMAD TAPAR, MALIK OF GANJA, AGAINST SULTAN BERKYARUQ (1099–1104)

**Orkhan Eyyubov**[1]

**UDC:** 94(5-011:479.24)"10/11"
**LBC:** 63.3(5Aze)4
**HoS:** 112
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.88-100

**Keywords:**

Muhammed Tapar,
Berkyaruq,
Al-Mustansir Billah,
Mu'ayyid al-Mulk,
Ganja,
Battle of Hamadan,
Principality of Ganja

## ABSTRACT

The article examines the final stage of the political confrontations that took place in the Seljuk state at the end of the 11th and the beginning of the 12th centuries, specifically the struggle between Muhammad Tapar and Sultan Berkyaruq during the years 1099-1104. Known as the Interregnum period, this stage is characterized by internal fragmentation within the Seljuk authority and the weakening of central administration. The study highlights the emergence of the regions of Arran and Azerbaijan as key centers of conflict, emphasizing the particular role of Ganja due to its direct subordination to Seljuk rule. The article also analyzes the influence of prominent statesmen - such as Mawdud Yaquti, Mu'ayyid al-Mulk, Jawharayn, Zubayda Khatun, and Majd al-Mulk - on the course of the struggle. It further discusses how the confrontation between the sultan and the crown prince weakened the state and indirectly affected the Seljuks' position in the Near East, particularly during the period of the First Crusade. By presenting the phases, causes, internal court intrigues, and consequences of the wars in chronological order, the article offers a comprehensive political panorama of the period.

[1] Senior Assistant, Department of Iranian History and Economy, Institute of Oriental Studies, ANAS; Baku, Azerbaijan
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097

**To cite this article:** Eyyubov, O. [2025]. The Rebellion of Muhammad Tapar, Malik of Ganja, Against Sultan Berkyaruq (1099–1104). *History of Science journal*, *6*(5), pp.88-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.88-100

***Article history:***
*Received: 12.10.2025*
*Revised: 14.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# GƏNCƏ MƏLİKİ MƏHƏMMƏD TAPARIN SULTAN BÖRKÜYARIĞA QARŞI ÜSYANI (1099-1104)

**Orxan Eyyubov**[1]

**UOT:** 94(5-011:479.24)"10/11"
**KBT:** 63.3(5Aze)4
**HoS:** 112
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.88-100

**Açar sözlər:**

Məhəmməd Tapar,
Börküyarıq,
Xəlifə Müstəzir Billah,
Müəyyədülmülk,
Gəncə,
Həmədan döyüşü,
Gəncə Məlikliyi

## ANNOTASİYA

Bu məqalə XI əsrin sonu və XII əsrin əvvəllərində Səlcuqlu dövlətində baş verən siyasi qarşıdurmaların son mərhələsini - Məhəmməd Tapar ilə Sultan Börkyarıq arasındakı 1099-1104 illər mübarizəsini araşdırır. Fetrət dövrü kimi tanınan bu amərhələ, Səlcuqlu hakimiyyətinin daxilən parçalanması və mərkəzi idarəetmənin zəifləməsi ilə xarakterizə olunur. Araşdırmada Aran və Azərbaycan şəhərlərinin münaqişələrin mərkəzi bölgələrindən biri kimi önə çıxması, xüsusilə Gəncənin birbaşa Səlcuqlu idarəçiliyinə tabe olması səbəbilə hadisələrdəki xüsusi rolu vurğulanır. Məqalə həmçinin dövlət daxilində nüfuzlu şəxslərin - Mövdüd Yaquti, Müəyyədülmülk, Gövhəreyn, Zübeydə xatun, Məcdülmülk kimi siyasi fiqurların fəaliyyətini və onların mübarizənin gedişatına təsirini təhlil edir. Sultan və vəliəhd arasındakı qarşıdurmanın dövləti necə zəiflətdiyi, bunun Səlcuqluların Yaxın Şərqdəki mövqeyinə və ilk səlib yürüşləri dövründə bölgədə yaranan vəziyyətə dolayı təsirləri qeyd olunur. Müharibələrin mərhələləri, səbəbləri, daxili saray intriqaları və nəticələri xronoloji ardıcıllıqla təqdim edilərək dövrün siyasi panoramı əhatəli şəkildə göstərilir.

[1] Böyük laborant, İran tarixi və iqtisadiyyatı şöbəsi, Şərqşünaslıq İnstitutu, AMEA; Bakı, Azərbaycan
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097
**Məqaləyə istinad:** Eyyubov, O. [2025]. Gəncə Məliki Məhəmməd Taparın Sultan Börküyarığa qarşı üsyanı (1099-1104). *History of Science jurnalı*, *6*(5), səh.88-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.88-100

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 12.10.2025*
*Yenidən baxılıb: 14.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ВОССТАНИЕ МУХАММЕДА ТАПАРА, МАЛИКА ГЯНДЖИ, ПРОТИВ СУЛТАНА БАРКИЯРУК (1099–1104)

**Орхан Эйюбов**[1]

**УДК:** 94(5-011:479.24)"10/11"
**ББК:** 63.3(5Азе)4
**HoS:** 112
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.88-100

**Ключевые слова:**

Мухаммед Тапар,
Баркиярук,
Халиф Мустазир Биллах,
Муаййидульмульк,
Гянджа,
Битва при Хамадане,
Гянджинское меликство

## АННОТАЦИЯ

В данной статье рассматривается заключительный этап политических противостояний, происходивших в государстве Сельджукидов в конце XI - начале XII века, а именно борьба между Мухаммедом Тапаром и султаном Беркиаруком в 1099-1104 годах. Этот период, известный как «смутное время», характеризуется внутренним распадом сельджукской власти и ослаблением центрального управления. В исследовании подчёркивается значимость регионов Аран и Азербайджан как ключевых центров противостояния, особенно выделяется Гянджа, которая, находясь в непосредственном подчинении сельджукской администрации, играла особую роль в происходящих событиях. В статье также анализируется деятельность влиятельных государственных деятелей - Мовдуда Якути, Муаййидульмулька, Говхарейн, Зубейды-хатун, Мадждульмулька - и их влияние на ход борьбы. Дополнительно рассматривается, каким образом противостояние между султаном и наследником престола ослабило государство и косвенно повлияло на положение Сельджукидов на Ближнем Востоке, особенно в период Первого крестового похода. Хронологическое изложение этапов войн, их причин, внутридворцовых интриг и последствий позволяет представить всестороннюю политическую картину эпохи.

[1] Старший лаборант, отдел истории и экономики Ирана, институт востоковедения, НАНА; Баку, Азербайджан
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097
**Цитировать статью:** Эйюбов, О. [2025]. Восстание Мухаммеда Тапара, малика Гянджи, против султана Баркиярук (1099–1104). *Журнал History of Science*, *6*(5), с.88-100.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.88-100

***История статьи:***
*Поступила: 12.10.2025*
*Переработана: 14.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Böyük Səlcuqlu dövlətinin Məlikşah ibn Alp Arslan (1072–1092) dövründəki zirvəsindən sonra 1092-ci il vəfatı ilə başlayan fetrət dövrü (1092–1105) türk-islam tarixinin qarışıq mərhələlərindən biridir. Bu dövrün sonu Börküyarıq (1094–1104) və Məhəmməd Tapar (1105–1118) qardaşları arasında hakimiyyət uğrunda gedən daxili müharibələrlə xarakterizə olunur. Mübarizə nəticəsində dövlət siyasi, inzibati və iqtisadi sabitliyini itirdi, iqta sistemi zəiflədi, atabəyliklər müstəqilləşdi və qərb sərhədləri (Anadolu, Suriya) səlib yürüşlərinə açıq qaldı. Bu qarşıdurma təkcə mərkəzi hakimiyyəti deyil, Azərbaycan ərazisini, xüsusilə Arran regionunu birbaşa təsir dairəsinə saldı və İraq Səlcuqlu sultanlığının (1120–1194) təməlini qoydu. Dövrün hadisələri barədə əsas məlumatları İbn əl-Əsir "əl-Kamil fit-Tarix", İbn əl-Cövzi "əl-Müntəzəm", Ravəndi "Rahət əs-Südur", Münəccimbaşı "Cami əd-Düvəl" və Fəzlullah Rəşidəddinin "Cami ət-Təvarix" əsərləri təmin edir. Bu mənbələr hadisələrin həm Səlcuqlu sarayı daxilindəki çəkişmələrə, həm də Azərbaycanın həmin dövrdəki siyasi vəziyyətinə işıq tutur.

Börküyarıq və Məhəmməd Tapar mübarizəsi zamanı Azərbaycanın rolu günümüzdə tam aydınlaşdırılmamış qalır. Halbuki Arran–Gəncə bu mübarizədə strateji baza rolunu oynayıb, Yaqutilər, atabəyliklər və türk qulamları burada formalaşmışdır.

Tədqiqatın məqsədi 1092–1105-ci illər arasındakı hakimiyyət mübarizəsini xronoloji ardıcıllıqla təhlil edərək Azərbaycanın siyasi və hərbi rolunu müəyyənləşdirmək və İraq Səlcuqlu sultanlığının təməlinin Arran ərazisində qoyulduğunu sübut etməkdir.

## 2.Siyasi quruluş və Azərbaycanın rolu

1090-cı illərdə Yaxın Şərqdəki siyasi quruluş Avropadakı Papa, imperator və krallar arasındakı münasibətlərə bənzəyirdi. Xəlifə mənəvi baxımdan ali mövqedə idi və dinin simvolu sayılırdı. Bu, Katolik dünyasında Papaya verilən rola bənzəyir. Böyük Səlcuqlu dövlətinin başında duran sultan isə siyasi və hərbi gücün sahibi idi və Avropadakı imperator tituluna uyğun gəlirdi. Hər iki lider həm Sultan, həm də imperator dini lider tərəfindən legitimləşdirilirdi. Dövlət konfederativ quruluşda idarə olunur və kiçik sultanlıqlarla atabəyliklər bu sistemin daxili strukturunu təşkil edirdi. Bu model Avropadakı imperatorluqların tərkibindəki krallıqlara bənzəyirdi. Həm Avropada, həm də Səlcuqlu dövlətində imperator/sultan ilə ona tabe olan krallıqlar/sultanlıqlar arasında qohumluq əlaqələri mövcud idi. Bəzi xristiyan knyazlıqları da Səlcuqlulara hər il xərac verərək onların tərkibinə daxil olmuşdular. Bu nümunələrə Anadolu və Gürcüstan ərazilərində rast gəlmək mümkündür. Xilafət dövründən miras qalmış iqta sistemi Səlcuqlular dövründə də davam etdirilirdi. Hərbi xidmət müqabilində sərkərdələrə torpaq sahələri verilir, bu da atabəyliklərin formalaşmasına səbəb olurdu.

Bəzi tarixçilər xəlifənin siyasi səlahiyyətlərinin Səlcuqlular dövründə itirildiyini düşünürlər. Lakin bu doğru deyil. Səlcuqlular Yaxın Şərqə gəldiklərində xəlifənin siyasi idarəçilik funksiyaları artıq əlindən alınmışdı. Bu proses X əsrdə, indiki İranın cənubunda yaranmış Buveyhi əmirliyi tərəfindən həyata keçirilmişdi. Xəlifə sadəcə xalqı bütöv saxlayan fiqur idi.

XI əsrin ikinci yarısında Azərbaycan ərazisindəki hakimlər güclü təsir gücünə malik idilər. Bu bölgəni idarə edən Yaqutilər onların başında gəlirdi. Xüsusilə Aran regionu sərhəd bölgəsi olduğundan strateji əhəmiyyət daşıyırdı. Xristiyan dünyası və Orta Asiya ilə sərhəd olan bu əraziləri idarə edən şəxslərə geniş səlahiyyətlər verilirdi. Bu bölgələrdə güclü ordu, nüfuzlu sərkərdələr və azad ticarət imkanları mövcud idi.

Mərkəzdən uzaq olan bu ərazilərdə üsyanlar qaçılmaz olurdu. Nəticədə, bu bölgələrdə dövlətləşmə prosesi baş verir və daxili muxtariyyətlər tanınırdı. Sultan, bu ərazilərə hakim sülalədən nümayəndələr göndərərək kiçik sultanlıqlar yaradırdı. Anadolu və Xorasan bölgələri dövlətin şərq və qərb sərhədlərində yerləşdiyindən, təhlükələrə qarşı müdafiə vəzifəsi daşıyırdı və bu səbəbdən daha azad şəkildə idarə olunurdu.

Azərbaycanı Çağrı Bəyin oğlu Yaquti idarə edirdi. 1090-cı ildə onun oğlu İsmayıl hakimiyyətə gəldi, lakin Börküyarıqa qarşı üsyanları uğursuz oldu. Araz çayının cənubu dövlətin mərkəzinə yaxın olduğundan daha mərkəzə bağlı şəkildə idarə olunurdu. Arazın şimalı isə sərhəd bölgəsi olduğundan daha müstəqil və muxtar şəkildə idarə edilirdi. Bu fərqlər atabəyliklərə tabe olan yerli sülalələrin idarəçilik xüsusiyyətlərinə görə dəyişirdi.

1092-ci ildə dövlət aparatı xeyli qarışmışdı. vəzir Nizamülmülk vəfat etmişdi və onun ölümündən əvvəl dövlət vəzifələrinə öz qohumlarını yerləşdirmişdi. Sonradan bu şəxslərin ölkədə xaosa səbəb olduğu müşahidə olunur. Börküyarıq 1095-ci ilə qədər əmisi Tutuş ilə mübarizə aparmışdır. İsfahanın dəstəyi ilə ölümcül vəziyyətdən qurtularaq mübarizəyə davam etmiş və nəticədə Tutuş məğlub edilərək öldürülmüşdür.

Məhəmməd Tapar, Sultan Məlikşahın Börküyarıqdan sonra ikinci oğlu idi [2, s.83]. Tapar 474cü ilin 18 şaban günü (21 yanvar 1082) anadan olub. Onun anası qıpçaq qızı Tacəddövlə Səfəriyyə adlı bir cariyə idi [15, s.226]. Atası vəfat etdiyində 11 yaşlı Tapar sultanın Bağdad səfərində iştirak edirdi [2, s.83; 9, s.37].

Sultan Məlikşah Bağdad səfəri əsnasında öldüyü vaxt Tapar ögey anası Tərkan xatun və qardaşı Mahmudla birlikdə İsfahana qayıtdı. İsfahanda olduğu vaxt Börküyarıqın şəhəri mühasirə etdiyini eşidib, gizlicə onun yanına qaçır. Daha sonra qardaşı Börküyarıq ilə Bağdada gedir (1093-cü il). Börkyaruqun rəqiblərindən biri Tərkən xatunla evlənən Yaquti İsmayıl idi. Onun 1093-cü ildə ölümündən sonra. Börküyarıq Azərbaycan və Arranda vəziyyəti ələ almaq üçün və Tərkən xatunun hakim güc olmaması üçün Bağdada yanına gəlmiş qardaşı Məhəmməd Tapara hicri 486 (1093) ilində Gəncə və ətrafını (Arranı) ona iqta etdi. Türk törəsincə yaxın adamlarından Əmir Qutluqtəkinidə ona Atabəy təyin etdi. Məhəmməd Tapar gücləndikdə atabəyini öldürtdü və Gəncənində içində olduğu Arran əyalətini və ona bağlı əraziləri hökmü altına aldı. Bu vaxt Taparın qəhrəmanlığı və igidliyi üzə çıxdı [2, s.88; 17, s.109; 6, s.237-238; 9, s.37].

Bu dövr şahzadənin Gəncəyə göndərilməsi əbəs yerə deyildi. Şəhər güclü qala dövləti idi. Şəddadilərin miras qoyduğu bu şəhər əzəmətinin zirvəsini yaşayırdı. Börküyarıqın qardaşını Gəncəyə göndərməsinin əsas səbəbi özünə rəqiblərdən birini bacardığı qədər paytaxtdan uzağa yollamaq idi.

**3.Börküyarıq və Gəncə Məliki Taparın münaqişəsinin səbəbi**

Taparın Gəncəyə məlik təyin edilməsi onun şəxsi iradəsi ilə bağlı deyildi, çünki cəmi on bir yaşı vardı. Hadisələrin əsas səbəbi sultan sarayında vəzirlik uğrunda gedən mübarizə idi. Bundarinin yazdığına görə, Börküyarıqın hakimiyyətini möhkəmləndirməsindən sonra Müəyyədülmülk, Fəxrülmülk və Məcidülmülk arasında çəkişmələr güclənmişdi. Müəyyədülmülk və Fəxrülmülk Nizamülmülkün oğulları, Məcidülmülk isə rəqiblərinin nüfuzunu qırmaq üçün cəld addımlar atan digər vəzir idi. 1095-ci il Daşilo döyüşündən sonra Müəyyədülmülk ilə Börküyarıqın yaxınlaşması xalqın narazılığına səbəb olur. Məcidülmülk isə fürsətdən istifadə edərək Müəyyədülmülkün tərəfdarlarını aradan çıxarır və sultanın anası Zibeydə Xatunun rəğbətini qazanır. Bundarinin verdiyi məlumata görə, Zibeydə Xatunun Müəyyədülmülkə soyuq münasibətinin səbəblərindən biri də onun sultanın anasını İsfahana gətirməyə göndərilən heyətin qarşısını almağa çalışması idi. Bu hadisədən sonra Zibeydə Xatun Müəyyədülmülkə qarşı kin bəsləməyə başlamışdı [2, s. 84-88].

Müəyyədülmülk və qardaşı Fəxrilmülk arasındakı çəkişmənin səbəbi hər ikisinin güc sahibi olmaq istəyi idi. 1095-ci ildə Müəyyədülmülk sədr-əzəm vəzifəsindən uzaqlaşdırılır. Fəxrülmülk onun yerinə keçir. Ancaq əsas söz sahibi Məcdülmülk idi. Müəyyədülmülk həbsdə oluğu vaxtda Validə Sultana məktublar yazaraq ona yalvardı və beləliklə Müəyyədülmülk həbsdən qurtuldu. Daha sonra özünü ibadət içərisində olduğunu göstərdi. Gah Nəhavənd, gah da Müşkanda qaldı. Bir neçə ay sonra Məhəmməd Taparın paytaxtına, yəni Gəncəyə yola düşdü. O burada Məhəmmədin gücünü hiss etdi və onun hökmdarlıq

arzularının olması qənaətinə gəldi. Müəyyədülmülk sultanlıq uğrunda mübarizəyə girməyə qərar verdi. Lakin buna mane olan Qutluq Təkini görən Atabəy bir müddət gözlədi. Özünü kifayət qədər güclü hiss edəndə Qutluq Təkini öldürtdürür və sultanlıq uğrunda mübarizəyə başlayır [6, s.237-238; 5, s.67].

İbn Əl əsr öz əsərində (Əl Kâmil fit tarix) Məcdülmülkün şiə olmasından bəhs edir [6, s. 239]. Biz yenə İbn Əl əsr və digər tarixçilərdən bilirik ki, Sultan Börküyarıqda şiə, batini təriqətlərlə əlaqədə olması hətta sultanında batini olması xalq arasından dildən dilə gəzirdi [6, s.265; 11, s.239]. Ancaq bu xalq arasında gəzən söz söhbət idi. Bu dövrdə Arran və Azərbaycan sünni müsəlman idi və batınilərin hücumlarına məruz qalırdı. Hətta, Müəyyədülmülk vəzirlikdən çıxarıldıqdan sonra İsfahanda Məlikşahın yaxın adamı Ünər Bəyin yanına gəlib onu Börküyarıqa qarşı qaldırmağa çalışır. Ünər Bəy üsyan qaldırsada sonradan uğursuz olur. 1098-ci ildə batinilər tərəfindən öldürülür [11, s.211-214; 6, s.234-235].

**4.I qarşıdurma**

Məcidülmülk Əbu Fəzl Balasani divanı faktiki olaraq təkbaşına idarə edirdi; Fəxrülmülk isə yalnız formal sərd-əzəm sayılırdı. Bu dövrdə batinilər sultanın bir çox adamını aradan götürür, rəqiblər isə bu sui-qəsdlərdə Məcidülmülkü günahlandırırdı. Əmir Porsukun öldürülməsi vəziyyəti daha da gərginləşdirdi. Porsukun ölümündən sonra Müəyyədülmülk onun oğullarını öz tərəfinə çəkə bildi, Zəngi və Akbörü isə Porsukun qətlində Məcidülmülkü ittiham etdilər. Bu vaxt Əmir Axur İnanc Yabqu, Bilgə Bəy, Toğanyürək və digər porsukçu əmir-lər birləşərək sultanın Zəncanda olduğu sırada Məcidülmülkün öldürülməsini tələb etdilər. Əks halda sultanı tərk edib vəziri zorla aradan qaldıracaqlarını bildirdilər. Lakin sultan onların şərtlərini qəbul etmədi [12, s.57-58]. Ancaq orduda üsyan başladıqda yalnız həbs etmək şərti ilə vəziri onlara verəcəyini deyir. Məcidülmülk heç əmirlərin yanına çatmadan qullar tərəfindən öldürülərək başı kəsilir və Müəyydülmülkə göndərilir (492\1098-1099) [6, s.239-240].

Vəzirin ölümü ilə heçnə bitmir. Ortalıq səngimədiyi üçün əmirlər sultana təklif edirki təhlükəsizlik üçün Reyə köçsün və belədə olur. O Reyə gedərkən yanında 200 nəfər atlı var idi [2, s.88; 11, s.228]. Geri qalan əsgərlər Sultanın sarayını yağmaladı və sonra Harrangahda (Həmədanda kənd) Taparın ordusuna qatıldılar. Əmir Yınal b. Anuştəkin yanındakı bəzi əmirlərlə birgə Reydə Sultanın sıralarına qatılır. Börküyarıq Taparla döyüşməmək üçün İsfahana geri dönməyə çalışsa belə əhali darvazaları onun üzünə açmır.Buna səbəb isfahanlıların Taparın tərəfində olması idi. Beləliklə Sultan Xuzistana qədər geri çəkilir.

Məhəmməd Tapar 20 sentyabr 1099 Reyə çatdıqda orada olan və əvvəllər Müəyyədülmülklə münasibəti yaxşı olmayan Börküyarıqın anası Zübeydə Xatun Müəyyədülmülk tərəfindən əvvəlcə həbs edilmiş, daha sonra 5 min qızıl verməyə məcbur edilərək sənəd imzaladılıb öldürülmüş, Tapar isə analığının 42 yaşında baş verən bu ölümünə etiraz etməmişdi. Məhəmməd Tapar, onu dəstəkləyən qüvvələrin birləşməsi və Bağdadda adına xütbə oxunması ilə 4 noyabr 1099-da xəlifə Əl-Müstəzir tərəfindən ilk dəfə rəsmi olaraq Böyük Səlcuqlu sultanı elan edildi [6, s.239; 17, s.109].

Bundarinin qeyd etdiyinə görə, Məhəmməd Tapar babası Alp Arslanı örnək alaraq qardaşından sonra dağınıq vəziyyətdə qalan dövləti dirçəltməyə çalışdı və bu məqsədlə Müəyyədülmülkü vəzir təyin etdi. Bundan sonrakı hadisələr artıq bir neçə ay ərzində sultanın tez-tez dəyişdi tarixdə görülmüş çox qəribə dövr kimi yadda qalacaq. Börküyarıq Xuzistandan hərəkət edərək Bağdadda xütbəni yenidən öz adına oxutdurdu və 2 yanvar 1100-cü ildə şəhərə daxil olaraq xalqın rəğbətini qazandı bununla bərabər, bəzi əmirlər, o cümlədən Kürboğa və Gövhəreyn, onun tərəfinə keçdi. Qarışıq vəziyyətdə sultan yeni vəzir Əbdülcəlil Dehistanini təyin etdi, xəlifənin vəzirindən pul tələb etdi və nəticədə 160 min qızıl toplasa da, xəlifə ilə münasibətləri gərgin qaldı [6, s.242; 11, s.229].

Qışı Bağdad da keçirən Sultan Börküyarıq çoxlu türkmən ona qoşulduqdan sonra Məhəmməd Tapar üzərinə yürüş etdi. *4 Rəcəb 493-cü il (15 may 1100)* Həmədan yaxınlığındakı Səfidrudda baş verən müharibədə Miraxur İnanç Yabqunun hücumları nəticəsində məhv edilən qoşunlarını toplaya bilməyən Börküyarıq əlli nəfərlə döyüş meydanını tərk etdi [17, s.112]. Vəzir Müəyyidülmülk əsir düşən Börküyarıqın vəziri Ebü'l-Mahasini Bağdada göndərdi və xəlifə Müstazir-Billahdan Məhəmməd Tapar adına xütbəni yenidən oxumasını istədi. Xəlifə bu tələbi yerinə yetirdi və 14 rəcəb 493 (25 may 1100) cümə günü Məhəmməd Taparın adına xütbə oxudu. Bu aralıqda Xəlifə Müstəzir Billahın vəziri Amidüdövlə vəzifəsindən çıxarılır.

Həmədan döyüşündə məşhur sərkərdə Gövhəreyn həlak olur. Döyüşdə Taparın çadırına qədər irəliləməsinə baxmayaraq digər cinahda Börküyarıq məğlub olunca əsgərləri ilə birlikdə geri çəkilir. Nəticədə döyüş meydanında qalan Gövhəreyn atından düşmüş və Taparın ordusundakı Xorasanlı qulam tərəfindən öldürülmüşdür. Onun cənazəsi Bağdada aparılaraq şəhərin şərq tərəfində Əbu Nəcib Ribatinin qarşısındakı məqbərədə dəfn edilib [16, s.19].

Börküyarıq məğlubiyyətdən sonra Reyə doğru hərəkət edib adamlarını topladı, Əmir Dad Həbəşini tərəfinə çəkmək üçün Damğana məktub göndərdi və Həbəşinin nəzarətində olan Xorasan, Təbriz və Cürcanın yarısı üzərində təsirini artırdı; Nişapura çatdıqda şəhərin əyyanlarını seçərək öz tərəfində olanları saxladı, lakin Əmir Dad Səncərin orduları ilə qarşılaşdığı üçün gəlmədiyini bildirərək onu dəvət etdi və nəticədə Börküyarıq min nəfərlik qüvvə ilə Həbəşinin yanına getdi, Əmir Dadın ordusunda isə 20 min süvaridən 5 mini batinilər idi [6, s.244].

İki ordu *en-Nüşecan* ətrafında qarşı-qarşıya gəldi [8, s.84; 13, s.64]. Səncərin ordusunda sağ cinah Əmir Bozquş, sol cinahda Əmir Gündəniz, mərkəzdə Əmir Rüstəm vardı. Börküyarıq mərkəzə hücum edir və Rüstəmi öldürür , Səncər geri çəkilir. Ancaq cinahlarda Gündəniz və Bozquş Börküyarıqın ordusunu məğlub edir. Börküyarıq geri çəkilərkən Səncərin anasınıda (həmdə Taparın anası) əsir alır. Səncər qorxurki Zübeydə xatuna qarşılıq olaraq anasını öldürəcək. Ancaq belə olmur Börküyarıq ona "sən mənim anamın dəngi deyilsən ki, səni öldürüm" deyir. Əsirlərini geri almaq üçün anasını tutduğunu söyləyir. Səncər əsirləri geri verdiyində Börküyarıqda anasını sərbəst buraxır. Əmir-Dad isə türkmən kəndində tutuldu və Bozquşun yanına gətirilərək öldürüldü.

**5.II qarşıdurma**

Börküyarıq Xuzistanda dəstək toplayaraq Əmir Porsukun oğlanları Zəngi və Elbəyi, həmçinin Əmir Axur İnanc Yabqunun yerini alan oğlu Əmir Ayazı öz tərəfinə çəkdi; Ayazın Müəyyədülmülkə nifrəti onun bu mövqeyini gücləndirdi. Bu dövrdə Məhəmməd Tapar Həmədana hücuma keçdi, lakin Savə hakimi Söhran b. Keyxosrov Börküyarıq tərəfə dönərək ikinci qarşıdurmada onun hərbi gücünü nümayiş etdirdi. 5 aprel 1101-ci il Həmədan döyüşündə Börküyarıq 50 min, Tapar isə 15 min atlı ilə qarşı-qarşıya gəldi [6, s.251; 8, s.85; 14, s.152]. Gün boyu davam edən döyüşdə Taparın əsgərləri Börküyarıq tərəfə keçdi, əlavə silah və sursat onun qüvvələrinin əhvalını yüksəltdi və Tapar geri çəkilməyə məcbur oldu. Müəyyədülmülk əsir düşsə də 100 min dinar qarşılığında vəzirliyə gətirildi; lakin Börküyarıq sarayda yayılan söz-söhbətlər və Müəyyədülmülkün anasını öldürməsi səbəbilə onu qətlə yetirdi.

Məhəmməd Tapar məğlubiyyətindən sonra üç yüz nəfər və iki əmir ilə Məlik Səncərin yanına getdi [13, s.67; 17, s.123]. Cürcanda iki qardaş ittifaq quraraq Reyə keçdi və Nizamülmülkə bağlı qullar onlara qatıldı. Qələbədən sonra Börküyarıqa qoşulanlar 100 min nəfərə çatdı, lakin maddi çatışmazlıq və bəzi əmirlərin ayrılması ordunun dayanıqlığını zəiflətdi. Azərbaycan məliklərindən Yaquti Mövdud b. İsmayılın üsyanı isə əlavə təzyiq yaratdı. Börküyarıq Əmir Ayazdan yardım istəsə də, o əvvəl Tapara qoşulsa da, sonradan yenidən Börküyarıq tərəfinə keçdi.

13 sentyabr 1101-ci il Börküyarıq beş min nəfərlik qüvvə ilə Bağdada daxil oldu [6, s.254; 11, s.236]. Məhəmməd Tapar və Səncər on gün sonra ardınca çatdı, Əmir Ayaz da qoşuldu. Tapar və Səncər Həmədanı ələ keçirərək yağmaladı; xəlifədən 50 min qızıl tələb etdilər, buna baxmayaraq Börküyarıq ordusu da yağmalamağa davam etdi. Sultan Börküyarıq Bağdadda olarkən vəziri Əbu əl-Məhasin Dehistani vasitəsilə Hillə ərəb əmiri Seyfüddövlə Sadaka b. Mənsura dövlət xəzinəsindən 1 milyon dinar və borcların qaytarılmasını tələb etdi, əks halda ordu ilə təhdid etdi; bu xəbər Sadakada hiddət yaratdı, o Məhəmməd Tapar adına xütbə oxutdu və Kufəyə qoşun yeridərək Börküyarıqın adamını çıxardı, nəticədə aralarında gərginlik yarandı [17, s.124; 6, s.254; 13, s.69-70].

İkinci qarşıdurma Börküyarıqın hərbi və siyasi çevikliyini göstərir; o strateji ittifaqlar və həm hərbi, həm də diplomatik vasitələrlə üstünlüyü qorudu. Lakin ordunun maddi təminatı və əmirlərin sadiqliyi onun üçün davamlı problem yaratmış, xəlifə və yerli əmirlər ilə münasibətlər gərginləşmişdir. Digər tərəfdən Gəncənin və Azərbaycanın idarəsi Taparın əlindən çıxmışdır.

**6.III qarşıdurma**

Məhəmməd Tapar və Səncər böyük qüvvə ilə Bağdada doğru yola çıxır. Hulvanda onlara İlgazi b.Artuk qoşulur. Digər tərəfdə Börküyarıq ölüm döşəyində idi. Adamları onu Bağdaddan çıxarıb Dəclənin digər sahilinə keçirə bilir. Artıq hər kəs onun öləcəyini düşünürdü. Ordudakı əsgərlər qorxurdu və dəfn işləri danışılırdı. Belə bir vaxtda birdən birə Börküyarıqın vəziyyəti yaxşıya doğru irəliləyir. Biz bu hadisəni 1095-ci ildə Börküyarıqın əmisi Tutuşla mübarizəsindəki İsfahan möcüzəsi ilə eyniləşdirə bilərik. Hər iki vəziyyətdə sultan ölüm döşəyindədir və üsyançılara taxta çox yaxındır ancaq hər ikisində də Börküyarıq möcüzə ilə sağlamlığına qovuşaraq geri dönüş edə bilir.

Məhəmməd Taparda qardaşının olduğu düşərgənin bir addımlığında Dəclə çayının digər sahilində idi. Ox atışlarından sonra Börküyarıqın adamları onu yaxınlıqdakı Vasit qəsəbəsinə çatdıra bilirlər [6, s.254; 8, s.87].

Məhəmməd Tapar 23 oktyabr 1101-də Bağdada gələrək dövlət sarayına yerləşdi. Xəlifə əl-Müstəzir Billah onu xoş qarşılayaraq, Börküyarıq və adamlarının davranışlarından əsəbləşdiyini və onun gedişi ilə çox sevindiyini bildirir. Hillə əmiri Sadakada buraya gələrək Tapara itaət edir.

Məhəmməd Tapar və Səncər 11 Noyabr 1101 tarixinə qədər Bağdadda qalır [11, s.242]. Daha sonra öz saraylarına doğru yola çıxırlar. Səncər yola çıxdıqdan sonra Xəlifə Məhəmməd Tapara Börküyarıqın onun ərazilərini yağmaladığını bildirir və mübarizəyə başlayacağını söyləyir. Məhəmməd Taparsa hər şeyi özünün həll edəcəyini deyir. İlgazini Bağdad şıhnəsi təyin edib özü Ruzravərə doğru hərəkət edir.

Börküyarıq Vasıtda sağalır. Daha sonra əsas problem, Dəcləni keçmək üçün yetərincə gəminin olmaması məsələsi ortaya çıxır. Vasıtlılar bu məslədə Börküyarıqa kömək edir və onun ordusuna qatılır. Porsukoğullarıda yardıma gəlirlər. Börküyarıq dərhal Taparın arxasınca irəliləyir. Nəticədə onu Ruzravərdə haqlayır. Hər iki tərəfdə 4 min əsgər qarşı-qarşıya gəlir. Birinci gün heç bir tərəf döyüşə başlamır. İkinci gün kiçik çaplı duellər üçün döyüşməyə gələn əsgərlər silahı atıb bir-biriylə qucaqlaşıb ağlayırdılar və geri dönürdülər. Artıq bütün bu qardaş qırğınları əsgərləri taqətdən salmış və dövləti zəyiflətmişdi [7, s.620; 9, s.48].

Buna görədə Tapar tərəfdən Əmir Buldacı, Börküyarıq tərəfdənsə vəziri Əbül Məsasin və Əmir Ayaz görüşdülər və sülhə qərar verdilər (27 dekabr 1101). Bu müqaviləyə görə: 1) Börküyarıq Sultan, Məhəmməd Tapar Məlik adını daşımalı. 2) Gəncə və ətrafı, Azərbaycan,Diyarbəkir,Əl-Cəzirə və Mosul Məhəmməd Taparın təsir dairəsində olacaq. 3) Məlik Məhəmməd Tapar sarayında gündə 3 dəfə adını oxutduracaq. 4) Məlik Məhəmməd Tapar, hər hansısa yerə müharibə açarsa Börküyarıq ona dəstək olacaq. 5) Xorasandan başqa

digər ərazilər Börküyarıqa aid olacaq. Xorasan əvvəldə də olduğu kimi Səncərin nəzarətində qalacaq. 6) Məhəmməd Tapar hər il Sutana 1.3 milyon dinar qızıl verəcəkdi.

**7.IV qarşıdurma**

Məhəmməd Tapar Qəzvinə çatdıqda onu sülhə razı salan əmirlərdən Besməlini öldürtdürmüş, Əmir Ay Təkinin gözlərinə mil çəkdirmişdi; bu addımları əsasən Əmir Yınal b. Anuştəkin təşviq etmişdi. Daha sonra Tapar ordusu ilə Reyə gələrək sultanlığını elan etdi və beş dəfə adına xütbə oxutduraraq yenidən üsyan bayrağını qaldırdı. Bunu eşidən Sultan Börküyarıq 12 Mart 1102-ci ildə Rey yaxınlarında on minlik qoşunla Tapara qarşı çıxdı [9, s.49; 6, s.272; 13, s.74]. Börküyarıqın sərkərdəsi Deyləmli Söhrab b. Keyxosrov Taparın tərəfdarlarını məğlub etdi; nəticədə Taparın ordusunda xaos yaranaraq çox az adam həlak oldu, qalanlar isə qaçdı. Tapar qalan bəzi əmirlərlə 70–90 süvari ilə İsfahana çəkildi [8, s.90], Əmir Elbəy və Əmir Ayaz onu Quma qədər təqib etdi. Tapar və Əmir Yınalla İsfahana girərək şəhərin müdafiəsini gücləndirdi; 1100 süvari və 500 oxçu qalayı qoruyurdu [11, s.244].

Sultan Börküyarıq 15 min süvari və 100 oxçu ilə İsfahan surlarının qarşısına gəldi. Taparın güclü müdafiəsinə baxmayaraq, ərzaq çatışmazlığı və xəzinənin boşalması onun qüvvəsini tükətdi; yüksək ərzaq qiymətləri və əhali vergiləri ordunun vəziyyətini ağırlaşdırdı. Bu gedişat 10 Zilhiccə (25 Sentyabr 1102) tarixinə qədər davam etdi. Tapar gücünün tükəndiyini görərək şəhəri tərk etməyə qərar verdi. 150 süvari ilə yardım toplamağa çıxmış, qalan əmirlər isə İsfahanda qalmışdı.

Sultan Börküyarıq Əmir Ayazı Taparın arxasınca göndərdi. Ayaz Tapara çataraq onun sancağını və qiymətli əşyalarını əlindən aldı, lakin ona təhlükəsiz geri dönmək üçün at verdi [6, s.273]. Nəticədə Börküyarıq 18 Zilhiccə (3 oktyabr 1102) İsfahan mühasirəsini sonlandıraraq Həmədana hərəkət etdi [17, s.134]. İsfahan əhalisi qalasını müdafiə edə bildi. Bu dövrdə sultanın vəziri Əbu Məhasin batini qul tərəfindən öldürüldü; onun yerinə Taparın keçmiş vəziri Əbu Mənsur Meybuziyi vəzir təyin edildi.

Gəncə və Arrana bağlı bütün şəhərlər Məhəmməd Tapara aid idi. Adına xütbə oxunan axrıncı şəhər Zəncan idi. Əsas əsgərləridə Gəncədə idi və başlarında Əmir Oğuzoğlu vardı. Taparın İsfahanda mühasirədə olduğunu öyrəndiyində Nizamülmülkün oğlu Əbu Mənsur və qardaşı oğlu Məhəmməd b.Müəyyədülmülklə birlikdə İsfahana yola çıxırları. Onlar Taparın ordusuna Həmədan yaxınlıqlarında qatılırlar. Börküyarıqın gəldiyini xəbər alan Tapar Arrana doğru hərəkətə keçir. Ərdəbilə çatdıqlarında Mövdüd ona xəbər yollayır və dəstəyini bildirir.

Mövdudun atası İsmayıl, Börküyarıqın dayısı idi. Börküyarıq üsyan etdiyi üçün dayısını 1093cü ildə öldürmüşdü. Mövdudu eyni zamanda Taparın qaynı idi. Atasının intiqamını almaq üçün Məhəmməd Taparı dəstəkləyirdi [5, s.73].

Bu hadisələr olan zaman Məhəmməd Taparın əmiri Yınal, Reyi ələ keçirmək üçün icazə istədi. Tapar icazə verdiyində o, qardaşı Əli b.Anuştəkinlə noyabrın sonu 1102 Reyə daxil olur və xütbəni Tapar adına oxuda bilir. Ancaq Yınal xalqa zülm edərək 200 min altın dinar müsadirə edir. Ancaq 27 dekabr Porsuk b.Porsukun Reyə hücumu ilə Yınal məğlub olur və Rey yenidən Sultan Börküyarıqın nəzarətinə keçir. Əmir Yınalda 700 nəfərlə Bağdada gələrək Tapar leyhinə fəaliyyətini davam etdirir [8, s.90].

**8.Sonuncu qarşıdurma**

Börküyarıq Həmədana geri çəkilərkən Gümüştəkin Kayseriyini Bağdada şıhnə təyin edib xütbənin onun adına oxudulmasını istədi. O vaxt şəhərdə Taparın adamı İlqazi mövcud idi; İlqazi xəbəri qardaşı Sökmənə çatdırdı və onlar birlikdə Börküyarıqa qoşuldu. Əmir Yınal da Bağdada gəldi, Hillə əmiri Seyfüddövlə və Sadaka isə Tapara sədaqət andı içdilər. Beləliklə, dörd böyük əmir Taparın bu bölgədəki mövqeyini qoruyurdu.

Gümüştəkin 27 dekabr 1102-ci ildə Bağdada çatdı və 4 yanvar 1103-cü ildə xütbəni yenidən Börküyarıqın adına oxutdu; lakin Taparın tərəfdarlarının təzyiqi qarşısında dayana

bilmədi. Bu gərginlik zamanı xəlifə səlcuqoğullarına oxunan xütbəni bərpa edərək yalnız öz adına oxunmasını tələb etdi. Sadaka xəlifəyə Gümüştəkin şəhərdən çıxmasa bütün şəhəri yandırıb-talan edəcəyini bildirdi. Nəticədə Gümüştəkin 23 Yanvar 1103-cü il Bağdadı tərk etdi [17, s.134], və gərginlik azaldı Beləliklə xütbə yenidən Sultan Məhəmməd Tapar adına oxunmağa başladı.

Bu hadisələr göstərir ki, Bağdadda siyasi güc yalnız ordunun mövqeyi ilə deyil, həm də xəlifə və yerli əmirlərin dəstəyi ilə müəyyən edilirdi. Taparın tərəfdarları və xəlifə arasında balans, Gümüştəkinin geri çəkilməsinə səbəb olmuş, sultanın nominal hakimiyyətini möhkəmləndirmişdir.

Mövdudla Taparın ittifaqını eşidən Börküyarıq Azərbaycan səfərinə çıxır. 1102-ci il 27 dekabr Mövdud b.Yaquti xəstələnir və 22 yaşında olan zaman vəfat edir. Ona tabe olan əsgərlər, Məhəmməd Taparın əmrinə girir. Bunlar arasında Sökmən əl Qütbi və Antakyanın eçmiş hakimi Yağısyanın oğulları Məhəmməd və Qızıl Arslanda var idi. Börküyarıq 8 Cümədülula (17 fevral 1103)-də Xoyda Taparın orduları ilə qarşı-qarşıya gəldi [6, s.293]. Döyüş bir gün davam etdi. Əmir Ayazın 500 nəfərlə Taparın üzərinə hücum etməsi döyüşün gedişini dəyişdirdi. Tapar məğlub oldu və ordusu dağıldı. Börküyarıq Təbrizdə daha sonrada Zəncana çəkildi. Tapar isə Ahlata tabe Ərçişə gedir. Bu ərazi Əmir Sökmən Qutbiyə aid idi. Tapar daha sonra Ərzuruma ordanda müttəfiqi Şəddadi Mənüçöhrün şəhəri Aniyə ordanda Təbrizə geri dönür.

İllərdir davam edən qardaş qırğını dövləti uçuruma apardığını görən Börküyarıq və Məhəmməd Tapar, Kadı Əbü'l-Muzəffər əl-Curcani və Əbü'l-Fərəc əl-Həmədaninin səyləri ilə barışmağa qərar verdilər. 497-ci ildə (yanvar 1104) imzalanan müqaviləyə görə: 1) Sultan Börküyarıq, qardaşı Məhəmməd Taparın sarayında 5 dəfə adını oxutmasına qarışmayacaq. Məhəmməd Tapara tabe şəhərlərdə Börküyarıqın adı çəkilməyəcək. 2) İki sultan bir-biri ilə yazışmayacaq, yazışmalar vəzir aracılığı ilə ediləcək. 3) Əsgərlər istədikləri tərəfə keçə bilərdilər, müdaxilə edilməyəcək. 4) Azərbaycanda Səfidrud çayı sərhəd olmaq üzərə Arran, Azərbaycan, Diyarbəkir, Əl-Cəzirə, Mosul və Suriyaya qədər olan bölgələr, əlavə olaraq İraqda Sadakının idarəçiliyində olan yerlər Məhəmməd Tapara aid olacaq. 5) Sultan Börküyarıq, Cibal, Fars, İsfahan, Rey, Həmədan, Xuzistan və Bağdadı idarə edəcək. 6) Börküyarıqdan sonra Məhəmməd Tapar Böyük Səlcuqlunun sultanı olacaq. 7) Məlik Səncərin Məvarənnəhr və Xorasan hakimiyyəti eyniylə qalacaq və Səncər, Məhəmməd Tapara tabe olacaq.

Bu müqavilə ilə dövlət rəsmən iki yerə parçalanır. Gəncə Məhəmməd Taparın, İsfahan isə böyük sultanın paytaxtı olur. Börküyarıq bu anlaşmanı xəlifə Müstəzir Billaha bildirir. O da İlqazini yanına çağıraraq müqaviləni izah edir. İlqazi Börküyarıq adına xütbə oxunmasına razı olur. Müqavilədən 11 ay sonra İsfahana gedən Börküyarıq burada xəstələnir, Bağdada aparılarkən Burucirddə daha da pisləşir. O, Əmir Ayazı oğlu Məlikşaha atabəy təyin etməsindən az sonra vəfat etdi (2 Rebîülahir 498 / 22 dekabr 1104).

Onun dövründə şiələrə daha çox dövlət vəzifələri verilmişdir. Biz buna Məcidülmülkü misal çəkə bilərik. Hətta xalq içində sultanın batiniləri dəstəkləməsi haqqında danışılırdı. Bəzi mənbələr isə onun haqqında yazır: “ Bəzən çətin durumlarda bəzəndə bolluq içərisində yaşamış, hər şeyini itirib bir neçə dəfə ölüm ilə burun buruna gəlmiş, girdiyi müharibələrin sadəcə birində məğlub olmuş sultandır” [7, s.627].

Atabəyi ilə Bağdada gedən Məlikşah, xəlifə Müstəzir-Billah tərəfindən 23 Rəbülaxır 498 (12 yanvar 1105) tərəfindən “Cəlalüddövlə” ləqəbi ilə sultan elan edildi [9, s.52-53]. Bu arada Mosulu mühasirəyə alan Məhəmməd Tapar, Börküyarıqun ölüm xəbərini eşidib Bağdada doğru hərəkət etdi və 23 Cemaziyelevvel 498 (10 fevral 1105) tarixində şəhərə daxil oldu. Xütbə, şəhərin qərb tərəfində Məhəmməd Təpər, şərq tərəfində isə Məlikşah adına oxunurdu.

Tərəflər yeni müharibəyə hazırlaşarkən, sülh müzakirələri müsbət başa çatdı; Məşhur dövlət adamları Məhəmməd Tapar qarşısında çıxış edərək Atabəy Əmir Ayaz ve Məlikşahın bağışlanmasını dilədi. Məhəmməd Tapar bununla da Böyük Səlcuqlu dövlətinin sultanı oldu (13 Fevral 1105).

**9.Nəticə**

Məhəmməd Taparı İraq və Azərbaycan Səlcuqlu sultanlığının banisi hesab etmək mümkündür. Bu dövlətin siyasi və hərbi strukturunu anlamaq üçün ilk növbədə Taparın fəaliyyətinə nəzər salmaq vacibdir. O, Arran bölgəsində böyümüş və sonrakı dövrlərdə bu ərazilər onun ordularının əsas dayağı olmuşdur. Taparın dövründə Azərbaycan və Arran bölgələri yenidən siyasi və strateji mərkəzə çevrilmiş, şəhərlərin inkişafı və intibahı müşahidə olunmuşdur.

Taparın hakimiyyətə gəlişi ilə dövlət nisbətən sabitliyə qovuşmuş, səlib yürüşlərinə qarşı tədbirlər görülmüşdür. Bu dövr, Alp Arslanın zamanında mərkəzə çevrilmiş Azərbaycan torpaqlarının Taparın dövründə yenidən güclənməsi ilə yadda qalmışdır.

1092–1105-ci illər arasında yaşanan siyasi böhran İslam və türk tarixində dərin izlər buraxmışdır. Bu dövrü Səlcuqlu dövlətinin Fetrət dövrünün son mərhələsi kimi qiymətləndirmək yerinə düşər. Börküyarıqın taxta çıxması dövlətin idarəçiliyində ciddi problemlərə səbəb olmuşdur. Güclü siyasi qrupların onu dəstəkləməməsi, daxili münaqişələr və qardaş savaşları dövlətin zəifləməsinə, qərb torpaqlarının itirilməsinə və parçalanmasına gətirib çıxarmışdır.

Börküyarıqın dövründə Tərkən Xatun, İsmayıl b. Yaquti, Tutuş b. Alp Arslan, Önər bəy, Səncər və Məhəmməd Tapar kimi güclü fiqurlar ona qarşı mübarizə aparmış, nəticədə dövlətin mərkəzi hakimiyyəti sarsılmışdır. Xəlifə ilə münasibətlərin gərginliyi və şiə mənsublarına verilən üstünlüklər də siyasi sabitliyi pozmuşdur. Məcidülmülkün nümunəsində bu siyasətin izlərini görmək mümkündür.

Səlcuqlu dövlətinin ideoloji məqsədlərindən biri İslamın düşmənləri ilə mübarizə aparmaq idi. Bu kontekstdə iki başlı qartal simvolu qərb və şərq hakimiyyətini ifadə edirdi. 1071-ci il Malazgird döyüşü göstərdi ki, Bizansa gedən yol Azərbaycandan keçirdi. Arran bölgəsi Bizansla sərhəd olduğundan buraya oğuz axınları davamlı şəkildə yönəlirdi. Bu bölgədə kompakt şəkildə yaşayan türk boyları Anadoluda aparılan yürüşlər üçün əsas insan resursu rolunu oynayırdı.

Dövlət fəth olunmuş ərazilərdə dayaq yaratmaq üçün Azərbaycan və Arran bölgələrindən istifadə edirdi. Bu səbəbdən bu əraziləri idarə edənlər dövlət daxilində mühüm nüfuza sahib idilər. Azərbaycanda baş verən hər hansı xaos qərb sərhədlərinə mənfi təsir göstərirdi. Börküyarıqın bu bölgəyə dair siyasəti uğursuz olmuş, Yaqutilərin və Taparın üsyanları bu uğursuzluğu təsdiqləmişdir. Bu üsyanlar Suriya və Anadoluya təsir edərək nizamsızlığa səbəb olmuş, nəticədə Qüds və digər mühüm şəhərlər xristiyanlar tərəfindən ələ keçirilmişdir.

Börküyarıq şərq bölgələrində müəyyən uğurlar əldə etsə də, Səncərin Məhəmməd Taparı dəstəkləməsi onun mövqeyini zəiflətmişdir. Səncər Məvarənnəhir və Xorasan bölgələrində dövlətin təhlükəsizliyini təmin etsə də, siyasi seçimləri Börküyarıqın hakimiyyətini sarsıtmışdır. Hətta atasının paytaxt elan etdiyi İsfahana belə daxil ola bilməmişdir, çünki isfahanlılar ona qarşı çıxmışdılar.

Börküyarıq dövründə baş verən üsyanlar və siyasi parçalanma nəticəsində İraq Səlcuqlu dövləti formalaşmağa başladı. Bu dövlət Arran-Gəncə bölgəsindən çıxan türk bəyləri və qulamların dəstəyi ilə qurulmuşdur. Arazın şimalında yerləşən bu ərazilər müstəqilliyə meyilli, döyüşçü ruhlu və əlçatmaz coğrafiyaya malik idi. Qafqaz Albaniyasının (Ağvan və ya Er-Ran) tarixi mirasını daşıyan bu torpaqlar, Məhəmməd Taparın dövründə siyasi gücə çevrilmişdir.

1105-ci ildə Taparın Sultan olması ilə Arran regionallıqdan çıxaraq sultanlar yetişdirən bir mərkəzə çevrilmişdir. Bu günə qədər Səlcuqlularla əlaqəmiz əsasən atabəyliklər üzərindən izah olunurdu. Lakin Taparoğullarının Arran-Azərbaycan sülaləsi kimi təqdim olunması bu əlaqəni daha birbaşa və güclü şəkildə sübut edir. Onların sonrakı paytaxtı olan Həmədan isə Azərbaycan türklərinin kompakt şəkildə yaşadığı şəhərlərdən biri idi.

## 10.REFERENCES


1. Akbulut, E. (2018). *The Anatolian and Caucasian policy of the Iraqi Seljuk State (1119–1194)*. Erzincan: Erzincan Binali Yildirim University Institute of Social Sciences, 120 p. (in Turkish)
2. Al-Bondari. (1943). *History of the Iraqi and Khorasan Seljuks* (K. Burslan, Trans.). Istanbul: Maarif Printing House, 306 p. (in Turkish)
3. Allahverdiyev, N. (2018). *Ganja over a thousand years: 951–1551* (Vol. 1). Baku, 310 p. (in Azerbaijani)
4. Burhan, K. H. A. (2018). *The Iraqi Seljuks*. Van: Yuzuncu Yil University, 104 p. (in Turkish)
5. Gursoy, S. (1997). *Ganja from the Seljuks to the Ottomans*. Erzurum: Ataturk University, 230 p. (in Turkish)
6. Ibn al-Asir, A. (1991). *Al-Kamil fi al-Tarikh* (Vol. 10, Trans. by A. Ozaydin). Istanbul: Bahar Publications, 543 p. (in Turkish)
7. Kilinccheker, O. (2021). The struggle for the throne during the reign of Great Seljuk Sultan Berkyaruk. *Kahramanmaras Sutcu Imam University Journal of Social Sciences, 18*(1), 606–629. (in Turkish)
8. Munajjimbashi, A. (2017). *Jami‘ al-Duwal* (Ed. by A. Ongul). Istanbul: Kabalci Publications, 432 p. (in Turkish)
9. Najaf, A. (2017). *The Atabegs of Arran*. Baku: Bashla Kitab, 430 p. (in Azerbaijani)
10. Nishapuri, Z. (2001). *Saljuqname* (Trans. by K. A. Luther). New York, 189 p. (in English; original in Persian)
11. Ongul, A. (2018). *The Great Seljuks*. Istanbul: Camlica Publications, 424 p. (in Turkish)
12. Ozaydin, A. (n.d.). Muhammad Tapar. *TDV Encyclopedia of Islam*. Retrieved from https://islamansiklopedisi.org.tr/muhammed-tapar (in Turkish)
13. Ozaydin, A. (2003). The history of the Seljuk period of Sultan Berkyaruk. *Journal of Historical Studies*, *18*(2), 147–149. (in Turkish)
14. Rashid al-Din, F. (2010). *Jami‘ al-Tawarikh: The Seljuk State*. Istanbul: Selenge Publications, 311 p. (in Turkish; original in Persian)
15. Urfali, M. (2000). *The Chronicle (952–1136) and the Appendix of Priest Grigor (1136–1162)* (Trans. by H. Andreasyan). Ankara: Turkish Historical Society Publications, 365 p. (in Turkish)
16. Usta, A. (2013). The famous Seljuk commander Saduddevle Gevherayin. In *Festschrift for Erdogan Mercil* (96–111). Istanbul: Bilge Kultur Sanat. (in Turkish)
17. Ibn al-Jawzi, M. (1992). *Al-Muntazam fi Tarikh al-Muluk wa al-Umam*. Beirut, 431 p. (in Arabic)
18. Al-Rawandi, M. (1921). *Rahat al-Sudur wa Ayat al-Surur*. London: Great Russell Street, 630 p. (in Persian)


## ƏDƏBİYYAT


1. Akbulut, E. (2018). *Irak Selçuklu Devletinin Anadolu ve Kafkasya siyaseti (1119–1194)*. Erzincan: Erzincan Binali Yıldırım Üniversitesi Sosyal Bilimler Enstitüsü, 120 s.
2. Al-Bondari. (1943). *İrak ve Horasan Selçukluları Tarihi* (çev. K. Burslan). İstanbul: Maarif Matbaası, 306 s.

**3.** Allahverdiyev, N. (2018). *Gəncə min ildə: 951–1551* (I cild). Bakı, 310 s.
**4.** Burhan, K. H. A. (2018). *İrak Selçukluları*. Van: Yüzüncü Yıl Üniversitesi, 104 s.
**5.** Gürsoy, S. (1997). *Selçuklulardan Osmanlılara GENCE*. Erzurum: Atatürk Üniversitesi, 230 s.
**6.** İbnü'l-Esir, A. (1991). *El Kamil Fi't-Tarih* (X cild, çev. A. Özaydın). İstanbul: Bahar Yayınları, 543 s.
**7.** Kılınççeker, Ö. (2021). Büyük Selçuklu Sultanı Berkyaruk Dönemi Saltanat Mücadeleleri. *Kahramanmaraş Sütçü İmam Üniversitesi Sosyal Bilimler Dergisi*, *18*(1), 606–629.
**8.** Müneccimbaşı, A. (2017). *Camiu'd-düvel* (der. A. Öngül). İstanbul: Kabalcı Yayınları, 432 s.
**9.** Nəcəf, Ə. (2017). *Aran Atabəyləri*. Bakı: Başla Kitab, 430 s.
**10.** Nishapuri, Z. (2001). *Saljuqname* (trans. Kenneth Allin Luther). New York, 189 p.
**11.** Öngül, A. (2018). *Büyük Selçuklular*. İstanbul: Çamlıca Basım Yayın, 424 s.
**12.** Özaydın, A. (n.d.). Muhammet Tapar. *TDV İslam Ansiklopedisi*. Retrieved from https://islamansiklopedisi.org.tr/muhammed-tapar
**13.** Özaydın, A. (2003). Sultan Berkyaruk Devri Selçuklu Tarihi. *Tarih İncelemeleri Dergisi*, *18*(2), 147–149.
**14.** Reşü'd-din, F. (2010). *Cami'ü't-Tevarih: Selçuklu devleti*. İstanbul: Selenge Yayınları, 311 s.
**15.** Urfalı, M. (2000). *Vekayi-namesi (952–1136) ve papaz Grigor Zeyli (1136–1162)* (çev. H. Andreasyan). Ankara: Türk Tarih Kurumu Yayınları, 365 s.
**16.** Usta, A. (2013). Ünlü Selçuklu Kumandanı Sadüddevle Gevherayin. İçinde *Erdoğan Merçil'e Armağan* (96–111). İstanbul: Bilge Kültür Sanat.
**17.** ابن الجوزي، م. (1992). *المنتظم في تاريخ الملوك والأمم*. بيروت، ص. 431.
**18.** الروندی، محمد. (1921). *راحت‌الصدور و آیت‌السرور*. لندن: خیابان گریت راسل، 630 صفحة.